| Kamran Bağırov | |
|---|---|
| Kamran Məmməd oğlu Bağırov | |
| **Azərbaycan SSR KP MK-nın 12-ci birinci katibi** | |
| 3 dekabr 1982 — 21 may 1988 | |
| **Sələfi** | Heydər Əliyev |
| **Xələfi** | Əbdürrəhman Vəzirov |
| **Şəxsi məlumatlar** | |
| **Partiya** | Sovet İttifaqı Kommunist Partiyası |
| **Təhsili** | Azərbaycan Texniki Universiteti |
| **Doğum tarixi** | 24 yanvar 1933 |
| **Doğum yeri** | Şuşa, Şuşa rayonu, DQMV, Azərbaycan SSR, ZSFSR, SSRİ |
| **Vəfat tarixi** | 25 oktyabr 2000 (67 yaşında) |
| **Vəfat yeri** | Bakı, Azərbaycan |

**Kamran Məmməd oğlu Bağırov** (24 yanvar 1933, Şuşa, DQMV – 25 oktyabr 2000, Bakı) — Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin 12-ci birinci katibi (1982–1988).

## Həyatı

Kamran Bağırov 1933-cü ildə Şuşada doğulub. 1957-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirib. Sonra Ali Partiya Məktəbində təhsilini davam etdirib. Tikinti sektorunda rəhbər postlarda çalışıb, Nazirlər Sovetində mühüm vəzifəyə irəli çəkilib. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində çalışdıqdan sonra kompartiyanın Sumqayıt şəhər partiya komitəsinin birinci katibi vəzifəsinə göndərilib.

1982–1988-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi olub. 1988-ci ildə Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət Komitəsinə sədr təyin edilir və o, bir müddət bu vəzifədə işləyir.

Kamran Bağırov 25 oktyabr 2000-ci ildə 67 yaşında vəfat edib. İkinci Fəxri Xiyabanda dəfn olunub.